Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun Müşahidə Şurasının 2009-cu il 25 noyabr tarixli iclasının qərarı ilə (Protokol №19) təsdiq edilmişdir

# Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına kreditlərin verilməsi məqsədilə sahibkarlıq subyektləri tərəfindən təqdim edilən investisiya layihələrinin qiymətləndirilmə

# MEYARLARI

Müvəkkil kredit təşkilatları tərəfindən sahibkarlıq subyektlərinin investisiya layihələrinin Sahibkarlığa Kömək Milli Fondunun müəyyən etdiyi meyarlar üzrə qiymətləndirilməsi layihələrin maliyyələşdirilməsi ilə bağlı məqsədyönlü qərarların qəbul edilməsində səmərəliliyi təmin edir. Qiymətləndirmə meyarlarının əhəmiyyətlilik dərəcəsindən asılı olaraq müvafiq bal sistemi müəyyən edilmişdir. Hər bir meyar alt meyarlardan ibarətdir və qiymətləndirmə müvafiq alt meyar üzrə aparılır. Meyarların alt meyarlarına verilmiş müvafiq ballar toplanmaqla meyar üzrə faktiki qiymət balı müəyyən edilir.

## İnvestisiya layihəsinin qiymətləndirilməsinə dair meyarların təsnifatı

| S/s | Meyarın adı | Maksimum (bal) | Faktiki (bal) |
|---|---|---|---|
| 1. | İnvestisiya layihəsinin Dövlətin iqtisadi siyasətinə və Fond tərəfindən müəyyən edilmiş prioritetlərə uyğunluğu (Cədvəl 1) | 20 | |
| 2. | Investisiya layihəsinin hazırlanmasına qoyulmuş minimal tələblərə uyğunluğu (Cədvəl 2) | 15 | |
| 3. | Məhsul (iş və xidmət) istehsalı üzrə tətbiq olunacaq texnologiya (Cədvəl 3) | 15 | |
| 4. | İnvestisiya layihəsinin regional əhəmiyyəti (Cədvəl 4) | 15 | |
| 5. | İnvestisiya layihəsi üzrə istehsalı nəzərdə tutulan məhsulun (iş və xidmətin) innovasiya, idxalı əvəz edən və ixrac yönümlü olması (Cədvəl 5) | 10 | |
| 6. | Layihənin iqtisadi səmərəlilik göstəriciləri (Cədvəl 6)* | 5 | |
| 7. | İnvestisiya layihəsi çərçivəsində istehsal olunacaq məhsulun (iş və xidmətin) rəqabət mühitinin güclənməsinə təsiri (Cədvəl 7) | 5 | |
| 8. | Sahibkarlıq subyektinin (təşəbbüskar) biznes tarixi (Cədvəl 8) | 5 | |
| 9. | İnvestisiya layihəsinin sosial, mədəni və ekoloji mühitə təsiri (Cədvəl 9) | 5 | |
| 10. | İnvestisiya layihəsi üzrə yeni iş yerlərinin yaradılması (Cədvəl 10) | 5 | |
| **Yekun** | | **100** | |

**Kiçik həcmli kreditlər üzrə investisiya layihələri qiymətləndirilərkən maksimum bal yekun qiymət balına əlavə edilir.*

**İnvestisiya layihəsinin dair yekun qiymətləndirilmə balı _________________**

**İnvestisiya layihələrinin qiymətləndirilməsi üzrə keçid balı 60 (altmış) bal müəyyən edilir.**

## 1. İnvestisiya layihəsinin Dövlətin iqtisadi siyasətinə və Sahibkarlığa Kömək Milli Fondu tərəfindən müəyyən edilmiş prioritetlərə uyğunluğu

Dövlətin iqtisadi siyasətinin həyata keçirilməsi və Fondun vəsaitlərinin daha da səmərəli yerləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarından və məqsədli Dövlət Proqramlarından irəli gələn tədbirlərin reallaşdırılmasına, eləcə də müəyyən edilmiş iqtisadiyyatın sahələri və iqtisadi rayonlar üzrə prioritet istiqamətlərə uyğun layihələrin maliyyələşdirilməsinə üstünlük verilməlidir.

(Cədvəl 1)

| **Alt meyarlar** | | | | | 20 ballıq şkala üzrə qiymətləndirmə |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | |
| Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına və ya məqsədli Dövlət Proqramlarına uyğunluğu | İqtisadiyyatın sahələri üzrə prioritet istiqamətlərə uyğunluğu | İqtisadi rayonlar üzrə prioritet istiqamətlərə uyğunluğu | İnvestisiya layihəsinin dövlətin iqtisadi siyasətinin reallaşdırılmasında və regional tarazlığın əldə edilməsində rolu | İnvestisiya layihəsinin ənənəvi peşə vərdişlərinə uyğunluğu | **Yekun bal** |
| | | | | | |

**Qeyd:** Hər bir alt meyar üzrə maksimum bal həddi qiymətləndirmə şkalası üzrə qəbul edilmiş balın alt meyarların sayına nisbəti ilə müəyyən edilir (20:5 = 4).

Alt meyarı qiymətləndirmə indikatorları

Tam uyğun deyil – 0 bal
Uyğun deyil – 1 bal
Qismən uyğundur – 2 bal
Uyğundur – 3 bal
Tam uyğundur – 4 bal

## 2. İnvestisiya layihəsinin hazırlanmasına qoyulmuş minimal tələblərə uyğunluğu

İnvestisiya layihələrinin hazırlanmasına qoyulmuş minimal tələblər sahibkarlıq subyektlərinin layihə üzrə nəzərdə tutdugu işlərin kompleksliyini müəyyən edir. Minimal tələblərə cavab verən investisiya layihəsinin reallaşdırılması prosesində zəif və üstün

cəhətlərin müəyyən edilməsi investisiya layihəsinin nəticələrinin düzgün qiymətləndirilməsini təmin edir.

(Cədvəl 2)

| Alt meyarlar | | | | | 15 ballıq şkala üzrə qiymətləndirmə |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | |
| İnvestisiya layihəsi üzrə məlumatların əhatəliliyi | İnvestisiya layihəsinin bölmələri üzrə məlumatların uyğunluğu | Maliyyə hesablamalarının dürüstlüyü | İnvestisiya layihəsinə dair əlavələrin dolğunluğu | İnvestisiya layihəsinin dürüst və səlis tərtibatı | **Yekun bal** |
| | | | | | |

**Qeyd:** Hər bir alt meyar üzrə maksimum bal həddi qiymətləndirmə şkalası üzrə qəbul edilmiş balın alt meyarların sayına nisbəti ilə müəyyən edilir (15:5=3).

Alt meyarı qiymətləndirmə indikatorları
Uyğun deyil – 0 bal
Qismən uyğundur – 1 bal
Uyğundur – 2 bal
Tam uyğundur – 3 bal

## 3. Məhsul (iş və xidmət) istehsalı üzrə tətbiq olunacaq texnologiya

Əhalinin yüksək keyfiyyətli məhsullarla təmin edilməsi, sahibkarlıq subyektlərinin idxalı əvəz edən və ixrac yönümlü məhsullar istehsalı üzrə ixtisaslaşması, rəqabətə davamlı məhsulların istehsalı, məhsuldarlığın və yüksək mənfəətin təmin edilməsi, işçilərin iş şəraitinin yaxşılaşdırılması və sair bu kimi tədbirlərin reallaşdırılması investisiya layihələri üzrə məhsul istehsalı prosesinə müasir texnologiyaların tətbiqindən ibarətdir. Qeyd edilənlər investisiya layihəsinin reallaşdırılması səmərəliliyini artırmaqla yanaşı ən əsası nəzərdə tutulan məhsul istehsalında keyfiyyət və rəqabət üstünlüklərini təmin edir.

(Cədvəl 3)

| Alt meyarlar | | | | | 15 ballıq şkala üzrə qiymətləndirmə |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | |
| Müasir texnologiyanın tətbiqi | İstehsal gücünə təsiri | Məhsuldarlığın və yüksək mənfəətin təmin edilməsinə təsiri | Rəqabətli məhsul istehsalına təsiri | Analoji texnologiyalardan üstünlüyü | **Yekun bal** |
| | | | | | |

**Qeyd:** Hər bir alt meyar üzrə maksimum bal həddi qiymətləndirmə şkalası üzrə qəbul edilmiş balın alt meyarların sayına nisbəti ilə müəyyən edilir (15:5 = 3).

Alt meyarı qiymətləndirmə indikatorları
Uyğun deyil – 0 bal
Qismən uyğundur – 1 bal

Uyğundur – 2 bal
Tam uyğundur – 3 bal

## 4. İnvestisiya layihəsinin regional əhəmiyyəti

İnvestisiyaların regionlara məqsədli yönəldilməsi onların sosial-iqtisadi inkişafında müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda investisiyaların səmərəli idarə olunması hər bir regionun iqtisadiyyatının inkişafında başlıca amillərdən biri hesab olunur. Region üçün prioritet hesab edilən investisiya layihələrinin seçilməsi ilk növbədə layihənin regionun iqtisadi xüsusiyyətlərinə uyğunluğu, mövcud potensialdan səmərəli istifadə etmək imkanları, regionların sosial-iqtisadi inkişafında mövcud olan kəskin fərqin aradan qaldırılması ilə regional tarazlığın əldə edilməsinə, məşğulluğun təmin edilməsinə, məhsul istehsalı üzrə müasir texnologiyaların gətirilməsi və s. bu kimi amillər nəzərə alınmaqla müəyyən edilir.

(Cədvəl 4)

| **Alt meyarlar** | | | | | 15 ballıq şkala üzrə qiymətləndirmə |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | |
| Regionun təbii resurslarından istifadə | Regionun məşğulluq problemlərinin həllinə təsiri | İnvestisiya layihəsinin yerli büdcə üçün əhəmiyyəti | Regionun sosial-mədəni problemlərinin həllinə təsiri | Regionun inkişafı üçün infrastrukturun yaradılmasında rolu | **Yekun bal** |
| | | | | | |

**Qeyd:** Hər bir alt meyar üzrə maksimum bal həddi qiymətləndirmə şkalası üzrə qəbul edilmiş balın alt meyarların sayına nisbəti ilə müəyyən edilir (15:5 = 3).

Alt meyarı qiymətləndirmə indikatorları
Uyğun deyil – 0 bal
Qismən uyğundur – 1 bal
Uyğundur – 2 bal
Tam uyğundur – 3 bal

## 5. İnvestisiya layihəsi üzrə istehsalı nəzərdə tutulan məhsulun (iş və xidmətin) innovasiya, idxalı əvəz edən və ixrac yönümlü olması

Sahibkarlıq subyektlərinin innovasiya, idxalı əvəz edən və ixrac yönümlü məhsul (iş və xidmət) istehsalı üzrə investisiya layihələrinin həyata keçirilməsinə həvəsləndirilməsi ilk növbədə ölkənin sosial-iqtisadi inkişafının sürətlənməsinə kömək edir. Bu istiqamətdə investisiya layihələrinin dəstəklənməsi ölkənin ixracın stimullaşdırılması və idxalın strukturunun təkmilləşdirilməsi üzrə tədbirlərinin reallaşdırılmasına müsbət təsir edir.

(Cədvəl 5)

| Alt meyarlar | | | | | 10 ballıq şkala üzrə qiymətləndirmə |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | |
| İnnovasiya | İdxalı əvəz edən | İxrac qabiliyyətli | Rəqabət qabiliyyətli | Qədim xalq sənətinin inkişafı | **Yekun bal** |
| | | | | | |

**Qeyd:** Hər bir alt meyar üzrə maksimum bal həddi qiymətləndirmə şkalası üzrə qəbul edilmiş balın alt meyarların sayına nisbəti ilə müəyyən edilir (10:5 = 2).

Alt meyarı qiymətləndirmə indikatorları

Uyğun deyil – 0 bal
Qismən uyğundur – 1 bal
Uyğundur – 2 bal

## 6. İnvestisiya layihəsinin iqtisadi səmərəlilik göstəriciləri*

İnvestisiya layihəsinin əsas iqtisadi səmərəlilik göstəricilərinin hesablanması layihənin iqtisadi cəhətdən səmərəliliyini göstərir və maliyyələşdirmə üzrə məqsədyönlü qərar qəbul edilməsində və alternativ layihələrin seçilməsinə kömək edir.

(Cədvəl 6)

| Alt meyarlar | | | | | 5 ballıq şkala üzrə qiymətləndirmə |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | |
| İnvestisiya qoyuluşunun səmərəliliyi | Səmərəlilik göstəricilərinə dair hesablamaların dürüstlüyü | İnvestisiyanın özünü ödəməsi | İnvestisiyanın rentabelliyi | Risklərin qiymətləndirilməsi | **Yekun qiymət** |
| | | | | | |

**Qeyd:** Hər bir alt meyar üzrə maksimum bal həddi qiymətləndirmə şkalası üzrə qəbul edilmiş balın alt meyarların sayına nisbəti ilə müəyyən edilir (5:5 = 1).

Alt meyarı qiymətləndirmə indikatorları

Uyğun deyil – 0 bal
Uyğundur – 1 bal

**Kiçik həcmli kreditlər üzrə tələb olunmur*

## 7. İnvestisiya layihəsi çərçivəsində istehsal olunacaq məhsulun (iş və xidmətin) rəqabət mühitinin güclənməsinə təsiri

Bazar münasibətlərinin mövcud olduğu iqtisadi sistemin əsas tələblərindən biri sağlam rəqabət mühitində məhsul istehsalının təmin edilməsidir. İstehsal olunmuş məhsulların rəqabət mühiti yaratması ilk növbədə məhsulların keyfiyyət üstünlüklərinin formalaşmasına və istehlakçıların tələbatlarının dolğun ödənilməsinə müsbət təsir göstərir.

(Cədvəl 7 )

| Alt meyarlar | | | | | 5 ballıq şkala üzrə qiymətləndirmə |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | |
| Bazar mövqeyi | Qiymət siyasəti | Analoji məhsullardan (iş və xidmətlərdən) keyfiyyət üstünlükləri | Tələbatların ödənilməsi səviyyəsi | Sağlam rəqabətin formalaşmasında rolu | **Yekun bal** |
| | | | | | |

**Qeyd:** Hər bir alt meyar üzrə maksimum bal həddi qiymətləndirmə şkalası üzrə qəbul edilmiş balın alt meyarların sayına nisbəti ilə müəyyən edilir (5:5 = 1).

Alt meyarı qiymətləndirmə indikatorları

Uyğun deyil – 0 bal

Uyğundur – 1 bal

## 8. Sahibkarlıq subyektinin (təşəbbüskar) biznes tarixi

Hər bir sahibkarlıq subyektinin (təşəbbüskarın) şəffaf və perspektivli biznes tarixinə malik olması investorlarda onun təqdim etdiyi investisiya layihəsinin maliyyələşdirilməsinə dair düzgün qərar qəbul etmələrinə əminlik yaradır. Digər tərəfdən sahibkarlıq subyektinin həmin fəaliyyət üzrə qazandığı təcrübə maliyyələşdirmə ilə bağlı riskləri qiymətləndirməyə kömək edir.

(Cədvəl 8 )

| Alt meyarlar | | | | | 5 ballıq şkala üzrə qiymətləndirmə |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | |
| Tarixi əmək (istehsal) vərdişlərinə bağlılıq | Müvafiq sahədə peşəkarlıq səviyyəsi | Müvafiq sahədə təcrübəsinin olması | İdarəetmə səriştəsinin olması | Etibarlılığın olması | **Yekun bal** |
| | | | | | |

**Qeyd:** Hər bir alt meyar üzrə maksimum bal həddi qiymətləndirmə şkalası üzrə qəbul edilmiş balın alt meyarların sayına nisbəti ilə müəyyən edilir (5:5 = 1).

Alt meyarı qiymətləndirmə indikatorları

Uyğun deyil – 0 bal

Uyğundur – 1 bal

## 9. İnvestisiya layihəsinin sosial, mədəni və ekoloji mühitə təsiri

İnvestisiya layihələrinin reallaşdırılmasında əldə edilmiş sosial-iqtisadi üstünlüklərlə yanaşı onun sosial, mədəni və ekoloji mühitə mənfi və ya müsbət təsirləri də mövcud ola bilər. Bu proses ilk növbədə müəyyən istehsal fəaliyyəti zamanı ətraf mühitin çirklənməsi, işçilərin həyat və sağlamlığına təhlükənin olması və mədəni-işgüzar əlaqələrin pozulması ilə də nəticələnə bilər. Bu baxımdan investisiya layihələrinin seçilməsi və qiymətləndirilməsi mərhələlərində yuxarıda göstərilən amillər nəzərə alınır. Eyni zamanda

ekoloji cəhətdən təmiz məhsullar istehsalı və ekoloji mühitin yaxşılaşmasına müsbət təsir göstərən investisiya layihələrinə üstünlük verilir.

(Cədvəl 9 )

| Alt meyarlar | | | | | 5 ballıq şkala üzrə qiymətləndirmə |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | |
| İnvestisiya layihəsinin ekoloji mühitə təsiri | Ətraf mühitin qorunması üzrə tədbirlər | İnvestisiya layihəsi üzrə kommunikasiya sistemlərinin mövcudluğu | İnvestisiya layihəsinin sosial-mədəni şəraitinin yaxşılaşmasına təsiri | Texniki təhlükəsizlik tədbirləri | **Yekun bal** |
| | | | | | |

**Qeyd:** Hər bir alt meyar üzrə maksimum bal həddi qiymətləndirmə şkalası üzrə qəbul edilmiş balın alt meyarların sayına nisbəti ilə müəyyən edilir (5:5 = 1).

Alt meyarı qiymətləndirmə indikatorları

Uyğun deyil – 0 bal

Uyğundur – 1 bal

## 10. İnvestisiya layihəsi üzrə yeni iş yerlərinin yaradılması

Yoxsulluğun azaldılması və məşğulluğun təmin edilməsi Dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri olduğundan, dövlətin güzəştli kreditlər hesabına yeni iş yerlərinin yaradılması əsas prioritetlərdən biri hesab olunur. Bu baxımdan Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditləri hesabına maliyyələşdirilən investisiya layihələri üzrə yeni iş yerlərinin yaradılması qarşıya qoyulmuş əsas məqsədlərdən biridir. Yeni iş yerləri isə sahibkarlıq subyektinin fəaliyyət istiqamətindən, həcmindən, istehsalının (iş və xidmətin) xüsusiyyətindən və investisiya layihəsi üzrə tələb olunan kreditin həcmindən asılı olaraq yaradılır.

(Cədvəl 10 )

| Alt meyarlar | | | | | 5 ballıq şkala üzrə qiymətləndirmə |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | |
| Yerli əmək resurslardan istifadə olunma səviyyəsi | İnvestisiya layihəsinin üzrə ali təhsilli mütəxəssislərin cəlb olunması | İnvestisiya layihəsi üzrə dayanıqlı iş yerlərinin yaradılması | İnvestisiya layihəsi üzrə gənc mütəxəssislərin cəlb olunması | İşçilərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi tədbirləri | **Yekun bal** |
| | | | | | |

**Qeyd:** Hər bir alt meyar üzrə maksimum bal həddi qiymətləndirmə şkalası üzrə qəbul edilmiş balın alt meyarların sayına nisbəti ilə müəyyən edilir (5:5 = 1).

Alt meyarı qiymətləndirmə indikatorları

Uyğun deyil – 0 bal

Uyğundur – 1 bal

**Bu meyarlar təsdiq olunduğu gündən qüvvəyə minir**